**Təsdiq edirəm:**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

__________________

27.03.2024-cü il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Effektiv idarəetmə və makroiqtisadi göstəricilər" işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı

| **Sıra №-si** | **Tematik sahələr və indikatorlar** | **Mövcud vəziyyət** (Son hesabat üzrə) | **Metodologiya** | **Görüləcək tədbirlər** | **Son icra müddəti** | **İcra orqanları** | **Məsul şəxslər** |
|---|---|---|---|---|---|---|---|
| 1. | **Büdcə şəffaflığı** | | Dövlət büdcəsinin gəlir və xərcləri ilə bağlı ictimaiyyətin hansı səviyyədə məlumatlandırılmasını əks etdirən Açıq Büdcə İndeksi 20 əsas meyarın dəyərləndirilməsi nəticəsində müəyyən edilir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi** | | | |
| | | | | **1.** Büdcə şəffaflığı göstəricisinin daha da yaxşılaşdırılması məqsədilə müvafiq meyarlar üzrə zəruri olan büdcə məlumatlarının ictimaiyyətə açıqlanması ilə bağlı tədbirlərin davam etdirilməsi | Mütəmadi | Maliyyə Nazirliyi | Elmir Eyvaz-zadə |
| | | | | 2. Açıq Büdcə İndeksi meyarlarına uyğun olaraq dövlət büdcəsinin icrasına dair yarımillik arayışın (mid-year review) dərc olunması | 15.08.2024 | | |
| | | | | 3. Ortamüddətli Xərclər Çərçivəsi ("Medium Term Expenditures Framework") sənədinin dövlət maliyyə idarəolunması sahəsi üzrə bir sıra fiskal diaqnostika alətləri, habelə Açıq Büdcə İndeksi meyarlarına uyğun olaraq hazırlanması və ictimaiyyətə açıqlanması | 15.10.2024 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 4. Dövlət Neft Fondunun 2023-cü ildə fəaliyyəti barədə, o cümlədən büdcəsinin icrası ilə bağlı hesabatın Azərbaycan və ingilis dillərində Fondun internet səhifəsində yerləşdirilməsi, Fondun rəsmi sosial media hesablarında (Facebook, X (Twitter), Instagram, Linkedin) bu barədə məlumatların paylaşılması və e-mail ilə yerli media qurumlarına press-relizlər göndərilməklə ictimaiyyətin məlumatlandırılması, aidiyyəti dövlət qurumlarına, Azərbaycanın xaricdəki səfirliklərinə, ölkənin universitet və kitabxanalarına, ölkədə fəaliyyət göstərən xarici ölkə səfirliklərinə, beynəlxalq təşkilatların nümayəndəliklərinə, Fondun xarici tərəfdaşlarına müvafiq hesabatların çap olunaraq təqdim edilməsi | İyul-avqust 2024-cü il | Dövlət Neft Fondu | Müşviq Bayramov |
| | | | | 5. Dövlət Neft Fondunun gəlir və xərcləri barədə rüblük məlumatların Fondun internet səhifəsində yayımlanması, Fondun rəsmi sosial media hesablarında (Facebook, X (Twitter), Instagram, Linkedin) bu barədə məlumatların paylaşılması və yerli media qurumlarına e-mail ilə press-relizlərin göndərilməsi vasitəsilə ictimaiyyətin məlumatlandırılması | Hər rübdən sonrakı ayın ikinci yarısında | | |
| 2. | **Dövlət tənzimlənməsi yükü** | | Ölkədə inzibati tələblərə (məs: icazələr, qaydalar, hesabatlar) riayət etmək bizneslər üçün nə dərəcədə ağırdır?” sualına cavab [1= çox ağırdır; 7= heç ağır deyil]. | Sosial şəbəkələrdə və mediada dövlət tənzimlənməsi yükünün optimallaşdırılması ilə bağlı aparılan işlərin daha ətraflı işıqlandırılması | Mütəmadi | İqtisadiyyat Nazirliyi | Vüqar Abdullayev |
| 3. | **İnflyasiya, illik % dəyişməsi** | | İstehlakçı Qiymətləri İndeksində illik faiz dəyişməsi. Yüksək inflyasiyanın və deflyasiyanın mənfi təsirlərini nəzərə almaq üçün inflyasiya U-şəkilli funksiya vasitəsilə normallaşdırılır. | İnflyasiyanın Mərkəzi Bankın hədəf diapazonunda saxlanılması istiqamətində müvafiq işlərin görülməsi | | Mərkəzi Bank | Ziya Əliyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4. | **Borc dinamikası** | | Borc dinamikası borc dəyişikliyinin minimum və maksimum normallaşdırılmasına əsaslanır. Borc dəyişmələrini 0-dan 100-ədək olan şkalada ifadə etmək üçün müəyyən bir kateqoriya təyin edilir, kateqoriya isə limitləri müəyyən edir. Kateqoriya 3 meyara bölünür: ümumi kredit reytinqi, dövlət borcunun ÜDM-ə nisbəti və ölkənin təsnifat dərəcəsi (1 – inkişaf etmiş ölkə olduqda, 0 – zəif inkişaf etmiş ölkə olduqda). | "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"ya uyğun olaraq dövlət borcunun dayanıqlılığının təmin edilməsi üzrə tədbirlərin davam etdirilməsi | Mütəmadi | Maliyyə Nazirliyi | Xədicə Əlizadə |
| 5. | **Ümumi daxili məhsul** | | Alıcılıq qabiliyyəti pariteti ilə qiymətləndirilən ümumi daxili məhsul, milyard dollarla. | Bu göstərici üzrə ölkə məlumatlarının hesablanmasında istifadə edilən rəsmi statistikanın aidiyyəti beynəlxalq təşkilatlara çatdırılması, Azərbaycana dair məlumatların müvafiq beynəlxalq təşkilatların məlumat bazalarında düzgün əks etdirilməsinin monitorinqinin aparılması, uyğunsuzluq aşkar olunduğu halda beynəlxalq təşkilatların informasiya ehtiyatlarında müvafiq dəyişikliklərin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi | | Dövlət Statistika Komitəsi | Nuru Süleymanov |
| ***İqtisadi Azadlıq İndeksi*** | | | | | | | |
| 6. | **3.3 Monetar azadlıq** | 147-ci yer, 63,9 bal | Monetar azadlıq komponenti iki alt-faktora əsaslanır:<br>1. Son üç ilin orta inflyasiya dərəcəsi;<br>2. Qiymətlərin tənzimlənmə səviyyəsi.<br>Son 3 ilin orta inflyasiya göstəricisindən qiymətlərə nəzarət səviyyəsindən asılı olaraq 20 bala qədər çıxılır və ümumi monetar azadlıq indeksi tapılır. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurum tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən həmin quruma zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | 1. Tənzimlənən qiymətlərlə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi | Cavid Nuruzadə |
| | | | | 2. Tarif (qiymət) Şurası tərəfindən sosial əhəmiyyət kəsb edən mal və xidmətlərin tariflərinin tənzimlənməsi, digər mal və xidmətlərin siyahısına yenidən baxılması | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal İnnovasiyalar İndeksi*** | | | | | | | |
| 7. | **1.1.2 Hökumətin effektivliyi**<br><br>**1.2.1 Tənzimləmə keyfiyyəti** | 58-ci yer, 43,6 bal<br><br>74-cü yer, 40,6 bal | Bu göstərici ictimai xidmətlərin və dövlət qulluğunun keyfiyyətini, siyasi təzyiqlərdən asılılıq dərəcəsini, siyasətin formalaşmasını və həyata keçirilmə keyfiyyətini, habelə hökumətin bu siyasətlərə sadiq qalma etibarını əks etdirir.<br><br>Bu göstərici hökumətin özəl sektorun inkişafına imkan verən və təşviq edən düzgün siyasət və qaydalar formalaşdırmaq və tətbiq etmək qabiliyyətini əks etdirir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi** | | | |
| | | | | 1. Regionlarda yeni sənaye parklarının yaradılması ilə bağlı tədbirlərin görülməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi | Vüqar Abdullayev |
| | | | | 2. Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və bu prosesdə sahibkarların maraqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə ölkə ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddətinin daha bir il uzadılması ilə bağlı “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi ilə əlaqədar müvafiq təklifin verilməsi | | | |
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə öz əksini tapması üçün görülmüş işlərlə dair məlumatların Mərkəzi Banka təqdim edilməsi | 01.06.2024 | | |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti beynəlxalq mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 15.06.2024 | Mərkəzi Bank | Ziya Əliyev |
| 8. | **3.2.3 Ümumi kapital yığımı (investisiyaların ÜDM-ə nisbəti)** | 122-ci yer, 14,6 bal | Bu göstərici ölkə üzrə ümumi kapital yığımının ÜDM-ə nisbəti kimi hesablanır və faizlə ifadə olunur. | 1. Özəl investisiyaların artırılmasının təşviqi, dəstəklənməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması və birbaşa xarici investisiyaların ölkəmizə cəlb edilməsinin stimullaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi | Vüqar Abdullayev |
| | | | | 2. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə öz əksini tapması məqsədilə görülmüş işlərlə dair məlumatların Dövlət Statistika Komitəsinə və Mərkəzi Banka təqdim edilməsi | 01.06.2024 | | |
| | | | | 3. İndikatora dair məlumatların aidiyyəti beynəlxalq mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 15.06.2024 | Dövlət Statistika Komitəsi, Mərkəzi Bank | Nuru Süleymanov<br>Ziya Əliyev |

| *Leqatum Rifah İndeksi* | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9. | | | Leqatum Rifah İndeksi, siyasət yönümlü 67 element əsasında formalaşdırılmış 12 komponentdən ibarətdir. Hər komponent 5-7 elementi və hər element 1-8 göstəricini əhatə edir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi** | | | |
| | **1. İnvestisiya mühiti** | 54-cü yer, 60,26 bal | 1. “İnvestisiya mühiti” mülkiyyət hüquqları, investorların hüquqları, müqavilələrin icrası yolu ilə investisiyaların adekvat qorunması dərəcəsini, sərmayə üçün yerli və beynəlxalq kapitalın mövcudluğunu ölçür və aşağıdakı alt-faktorlara əsaslanır:<br>- mülkiyyət hüquqları;<br>- investorların hüquqlarının qorunması;<br>- müqavilələrin icrası;<br>- ekosistemin maliyyələşdirilməsi;<br>- beynəlxalq investisiya məhdudiyyətləri. | 1. Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiya qoyuluşu edən yerli və xarici müəssisələrdə aparılan sorğu və müsahibələr çərçivəsində ölkənin cari investisiya mühiti, müvafiq çətinliklər, boşluqlar, eləcə də müəssisələrin üzləşdikləri problemlər barədə məlumatların əldə edilməsi və bu məlumatlar əsasında investisiya mühitinin yaxşılaşdırılması istiqamətində təkliflər paketinin (policy recommendations) formalaşdırılması və Komissiyaya təqdim edilməsi | 01.10.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti), Mərkəzi Bank (İndikatorla bağlı məlumatların aidiyyəti beynəlxalq quruma təqdim edilməsi üzrə məsul qurum) | Vüqar Abdullayev |
| | **2. Bazara giriş və infrastruktur** | 72-ci yer, 58,45 bal | 2. “Bazara giriş və infrastruktur” komponenti ticarətə imkan yaradan infrastrukturun keyfiyyətini, eləcə də mal və xidmətlər bazarındakı təhrifləri ölçür. | 2. Rəqabət Məcəlləsinin tətbiqi və qüvvəyə minməsi ilə bağlı müvafiq normativ hüquqi akt layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi, bazar iştirakçılarının bu istiqamətdə maarifləndirilməsi üzrə tədbirlərin görülməsi | İl ərzində | | |
| | **3. İqtisadi keyfiyyət** | 65-ci yer, 54,66 bal | 3. “İqtisadi keyfiyyət” komponenti ölkə iqtisadiyyatının nə dərəcədə güclü olduğunu (maliyyə dayanıqlılığını və makroiqtisadi sabitliyini), eləcə də maddi nemətlərin yaradılması baxımından (məhsuldarlıq, rəqabətlilik və dinamizm) nə dərəcədə yaxşı təchiz edilmiş olduğunu müəyyən edir. Bu göstərici, eyni zamanda işçi qüvvəsinin cəlb edilmə dərəcəsini və istehsal edilən mal və xidmətlərin müxtəlifliyini əks etdirir. | 3. Mərkəzi Bankın Virtual Təhsil Platformasında iqtisadiyyat və bank-maliyyə sahəsində yeni kursların yaradılması, platformanın imkanlarının genişləndirilməsi və platforma istifadəçilərinin sayının artırılması | 01.12.2024 | Mərkəzi Bank | Ziya Əliyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **4. İdarəetmə** | 113-cü yer, 40,52 bal | 4. “İdarəetmə” komponenti hökumətə nəzarət və məhdudiyyətlərin səviyyəsini, eləcə də idarəetmənin effektivliyini ölçür. İdarəetmə 6 alt-faktora əsaslanır:<br>- icra məhdudiyyətləri;<br>- siyasi hesabatlılıq;<br>- qanunun aliliyi;<br>- hökumətin dürüstlüyü;<br>- hökumətin effektivliyi;<br>- tənzimləmənin keyfiyyəti. | 4. “Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı”nın icrası və tətbiqi istiqamətində zəruri tədbirlərin görülməsi | İl ərzində | İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank (İndikatorla bağlı məlumatların aidiyyəti beynəlxalq quruma təqdim edilməsi üzrə məsul qurum) | Vüqar Abdullayev |
| ***Təbii resursların idarə edilməsi indeksi*** | | | | | | | |
| 10. | **Təbii resursların idarə edilməsi indeksi** | 56 bal | Təbii resursların idarə edilməsi indeksi ölkələrin hasilat sənayelərində mövcud qanunvericilik, qayda və tənzimləmələri, hasilat sənayesi ilə bağlı məlumatların və sənədlərin əlçatanlığını, audit və müstəqil qiymətləndirmə də daxil olmaqla nəzarətin təşkilini, resurs əsaslı sektorlarda effektivliyi artıran və ya məhdudlaşdıran idarəetmə mühitinin mövcudluğunu qiymətləndirir. İndeks 3 alt-komponentdən ibarətdir:<br>- dəyər realizasiyası;<br>- gəlir idarəetməsi;<br>- əlverişli mühit.<br>Dəyər realizasiyası və gəlir idarəetməsi alt-komponentləri müstəqil ekspertlər arasında 136 qiymətləndirilən və 13 qiymətləndirilməyən test sualından ibarət sorğu əsasında müəyyənləşdirilir. Əlverişli mühit alt-komponentinin qiymətləndirilməsində isə Dünya Bankının Ümumdünya İdarəetmə Göstəriciləri və Açıq Məlumat İnventarı kimi məlumat bazalarından istifadə edilir. | 1. “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikası Qanununa ətraf mühitə təsirin qiymətləndirilməsi hesabatlarının media vasitəsilə ictimaiyyətə açıqlanması və “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununa təbii resursların hasilatçıları (istismarçıları) tərəfindən ətraf mühitə təsir barədə hesabatların mediada dərc edilməsinə dair normaların daxil edilməsi məqsədilə hazırlanmış layihələrin müvafiq dövlət orqanları ilə razılaşdırılaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ədliyyə Nazirliyi | Rövşən Cabbarov |
| | | | | 2. Hasilat sektorunda ekoloji risklərin azaldılması və bu sahədə monitorinq sisteminin təkmilləşdirilməsinə dair mövcud vəziyyətin araşdırılması, bununla əlaqədar beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizə uyğun modelin seçilərək tətbiq edilməsi | İl ərzində | | Azər Osmanlı |
| | | | | 3. Sifarişçi (nəzərdə tutulan fəaliyyəti həyata keçirən şəxs) tərəfindən ətraf mühitə təsirinin uçotunun və hesabatının aparılmamasına, həmin məlumatların müvafiq icra hakimiyyəti orqanının yaratdığı orqana (quruma) razılaşdırılmış müddətlərdə təqdim edilməməsinə görə cərimə sanksiyasının tətbiqi ilə bağlı hazırlanmış layihənin müvafiq dövlət orqanları ilə razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2024 | | Anar Alməmmədov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 4. Karbohidrogen ehtiyatları barədə ictimaiyyətin məlumatlandırılması ilə bağlı təkliflərin hazırlanması və qanunvericiliyə uyğun olaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2024 | Energetika Nazirliyi | Aygün Əliyeva |
| | | | | 5. Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın təmin edilməsi | 15.10.2024 | Dövlət Statistika Komitəsi, Dövlət Neft Fondu | Nuru Süleymanov, Müşviq Bayramov |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 11. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupu ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbləri barədə dəqiq məlumatların Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvlər |
| 12. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq təşkilatların rəsmi məlumat bazalarında Azərbaycanla bağlı göstəricilərin mütəmadi olaraq yenilənməsinin təmin edilməsi | | | |